TÜRKİYE DİYANET VAKFI
BAKÜ TÜRK LİSESİ

# 2024-2025-ci il

# QƏBUL İMTAHANI

5
SİNİF

B
VARİANT

Ad, Soyad

İş nömrəsi

## AZƏRBAYCAN DİLİ

**1.** Fikirlərdən biri doğrudur:
A) *başı daşa dəymək*→frazeoloji omonimdir.
B) *məsul* sözünün sinonimidir→bəhrə
C) *göz, ayaq, düz*→ yalnız çoxmənalı sözlərdir.
D) *hicran* sözünün antonimidir→qovuşmaq
E) *bucaq, sifət, enerji* → termin və omonim kimi işlənir.

**2.** Uyğunluğu müəyyən edin.
***- Kökü isimdir.***
***- Feildən əmələ gəlmişdir.***
A) ayaqlaşmaq B) izləmək C) üzləşmək
D) azdırmaq E) yəhərlənmək

**3.** Verilmiş sözlərə uyğun gəlməyən variantı seçin.
- dəliqanlı
- məqsədyönlü
- keçid
- qarabəniz

A) sifət+ sifət B) sifət+ isim
C) isim+ sifət D) feil+ leksik şəkilçi
E) sifət+ leksik şəkilçi

**4.** Frazeoloji birləşmələrdən birinin mənası doğru verilmişdir:
A) gözünün odunu almaq – gözlərini dincəltmək, mürgüləmək, azacıq yatmaq
B) korluq çəkmək – hər şeylə təmin etmək, ehtiyacları ödəmək
C) kefinə soğan doğramaq – qanını qaraltmaq, kefinə dəymək, burnundan gətirmək
D) göz qoymaq – xoşlamaq, bəyənmək, gözünə xoş gəlmək
E) ağzına çullu dovşan yerləşməmək – ağzı yeməklə dolu olmaq, danışmağa fürsət tapmamaq

**5.** Qarşı-qarşıya verilmiş hansı sözlərdə fərqli məqamların sayı eyni **deyil?**
A) davamiyyət-qalibiyyət B) zülmkar-bəstəkar
C) ustad-dustaq D) şərikli-bəzəkli
E) dürüstlük-sərbəstlik

**6.** Hansı sözlərin orfoqrafiyasında eynicinsli samitlər yanaşı işlənmişdir?
1. [tövsiyə] 2. [kəntdən] 3. [soyuxqannı]
4. [hak'sız] 5. [balıxqulağı]
A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 3, 4 D) 1, 4 E) 2, 3

**7.** Hansı sözdə nöqtələrin yerinə *incə, qapalı, dodaqlanmayan* sait yazılmalıdır?
A) n..fuz B) h..lqum C) l..züm
D) xar..qə E) müh..m

**8.** Nöqtələrin yerinə hansı isimlər əlavə oluna bilər?
*... eyvana çatdılar.*
1. Onlar 2. Oğlanlar 3. Gülə-gülə
4. Uşaqlarda 5. Qonaqlar
A) 1, 3, 5 B) 1, 2, 4 C) 2, 5 D) 3, 4 E) 2, 4, 5

**9.** Ahəng qanununa tabe **olmayan**, lakin hecalara düzgün ayrılmış sözü tapın:
A) tele-vi-zor B) Kor-oğ-lu
C) qə-na-ət-cil D) Cəl-il-a-bad
E) ha-kim-iy-yət

**10.** Vurğusunu nəzərə alaraq hər variantda uyğunluğu **pozan** sözü seçin.
a. vurğusu **I** hecadadır: *dizel, nisbətən, xarici*
b. vurğusu **II** hecadadır: *gəlməz, baxmadan, almanca*
c. vurğusu **III** hecadadır: *şəhərədək, tabeli, oxusunlar*
A) a-xarici, b-almanca, c-tabeli
B) a-dizel, b-baxmadan, c-tabeli
C) a-dizel, b-gəlməz, c-şəhərədək
D) a-nisbətən, b-gəlməz, c-oxusunlar
E) a-xarici, b-baxmadan, c-oxusunlar

**11.** Kökü feil olan eyniköklü sözlər hansılardır?
A) yanğın, yandırıcı, yanır
B) tikinti, tikdir, tikan
C) gülüş, gülümsəmək, gələn
D) bölük, bölgə, bölüşmək
E) qorxu, qorxmuş, qorxunc

**12.** Eyni cümlə daxilində həm azaltma, həm də çoxaltma dərəcəli sifət işlənmişdir:
A) Qara geyimli, sir-sifəti çökmüş qoca yerə əyildi, tərtəmiz bulaq suyundan qurtumladı.
B) Qızın sarışın saçları günün altında daha parlaq idi.
C) Göy üzündə olduqca böyük bir bulud yamyaşıl çöllərə vahiməli gözəllik qatırdı.
D) Çox ağır addımlarla irəliləyən və geri dönüb baxmayan Eldar lap yorğun görünürdü.
E) Az adamın qatıldığı həmin teatrda çox maraqlı əsər nümayiş edildi.

**13.** Bəndin neçənci misralarında keçmiş zamanda olan feil var?

*Gözümü göy üzündən çəkməyirəm, haçandır,*
*Şəfəqli bir gecəyə bürünmüşəm, qalmışam.*
*Ay aləmə süd çilər, ulduzlar çıraqbandır,*
*Onlara baxa-baxa dərin fikrə dalmışam. (Qabil)*

A) I, III B) II, IV C) bütün misralarda
D) I, II, IV E) II, III, IV

**14.** Hansı sözlər həm sinonim, həm də omonim kimi işlənə **bilməz?**
A) yan-tərəf B) kök-dolu C) bənd-aşiq
D) surət-üz E) boya-rəng

**15.** Köhnəlmiş sözlərdən neçəsinin leksik mənası əşya adı bildirir?
*əsrük, baqqal, bəzirgan, qavat, uçmaq*
*gümrah, ayaq, nagahi*
A) 6 B) 5 C) 4 D) 3 E) 2

*Qəbul imtahanı -2025*

**16.** Cədvələ əsasən uyğun variantı seçin.

| | Başlanğıc forması | Əmələ gəldiyi nitq hissəsi | Fikir |
|---|---|---|---|
| A) | **gözlə**yəcək | isim | yanlış |
| B) | **yellən**irdi | feil | yanlış |
| C) | **naxoş**dur | sifət | yanlış |
| D) | **bağışla**dıq | isim | doğru |
| E) | **dilə**yir | isim | doğru |

**17.** Hansı sözlərin birləşməsi ilə defislə yazılan mürəkkəb söz yaranar?

*1. yer* *2. lal* *3. yurd*
*4. gülər* *5. dinməz* *6. üz*

A) 1 + 2; 3 + 4 B) 1 + 3; 2 + 5
C) 1 + 3; 4 + 6 D) 1 + 5; 4 + 6
E) 2 + 5; 3 + 6

**18.** Hansı sıra bir cür yazılan leksik şəkilçili sözlərdən ibarətdir?

A) uzunsov, qaraşın B) evdar, biganə
C) şamdan, xətkeş D) biinsaf, namus
E) şöhrətpərəst, dülgər

**19.** Konkret isimlərdən ibarət cərgədir:

A) hökmdarlıq, sənətkar, qələm
B) həkim, külək, istedad
C) atalıq, sevinc, günəş
D) bənövşə, bulud, satıcı
E) kitab, bilik, hədiyyə

**20.** Hansı variantda bir-birindən yalnız bir səs və ya bir hərflə seçilən sözlər ümumi qrammatik mənasına görə fərqlənir?

A) süfrə-sürfə B) atlas-atlaz C) həyat-həyət
D) qəlb-qəlp E) sənət-sənəd

***21-25-ci suallar mətn əsasında cavablandırılacaq.***

**I** Kiçik bir qəsəbə məktəbində Asəf və Murad adlı iki dost oxuyurdu. Onlar hər gün məktəbə gedir[1], məktəbdən sonra isə birlikdə top oynayırdılar.

**II** Asəf kasıb ailədən idi. Valideynləri dərzilik edirdi. Asəfin ayaqqabıları artıq köhnəlmiş[2], top oynamaqdan böyrü-başı cırılmışdı. Amma o bu vəziyyətdən heç vaxt şikayət etmirdi.

**III** Bir gün möhkəm yağış yağdı[3]. Sinfə kim daxil olurdusa, Asəfi görən kimi gülməyə başlayırdı. Çünki onun ayaqqabıları su **keçirmiş** və daha da yararsız hala düşmüşdü.

**IV** Həmin gün Murad dərsdən çıxanda heç bir şey demədən evə getdi. Gecə çox fikirləşdi, gözünə yuxu getmədi[4] və saatlarla fikrə daldı[5]. Səhər Asəfi görüşdükləri yerdə görən kimi dedi:

-Mənim ayaqlarım böyüyüb[6], bu ayaqqabıları da çoxdan alıblar, heç geyinməmişəm, artıq ayağıma olmur. Tam sənin ayağına görədir.

**V** Asəf çox sevindi, heç nə demədi, gözləri doldu. O an onların dostluğu daha da möhkəmləndi.

**VI** İllər keçdi. Asəf həkim, Murad isə müəllim oldu. Amma hər dəfə görüşəndə o köhnə ayaqqabıları xatırlayır, birlikdə gülürdülər.

Çünki bəzən bir cüt ayaqqabı bir ömürlük dostluğun təməli ola bilər.

**21.** Çərçivədə verilmiş cümlə ilə mətnin hansı abzasını genişləndirmək mümkündür?

| *Asəf və Murad artıq məktəbə çatmışdılar.* |
|---|

A) V B) IV C) II D) III E) I

**22.** Mətndə altından xətt çəkilmiş söz hansı cümlədə mətndəki mənasına uyğun işlənmişdir?

A) Ürəyindən keçirirdi ki, xəstəni ziyarət etsin.
B) Ürək yanğısını su ilə keçirmək olmaz.
C) Pəncərəniz səs və hava keçirirsə, onun təmirə ehtiyacı var.
D) Ailəlikcə möhtəşəm bayram keçirdilər.
E) Anası Nazimi maşın yolundan keçirirdi.

**23.** Biri mətnin plan bəndi ola **bilməz:**

A) Yağışlı bir gün B) Asəfin xeyirxahlığı
C) Yuxusuz keçən gecə D) Köhnə ayaqqabılar
E) Ömürlük dostluğun təməli

**24.** Hansı atalar sözünü mətnə aid etmək olar?

A) Vəfalı dost yad olmaz, görməsə, yüz il səni.
B) Dost başa baxar, düşmən ayağa.
C) Dost dar gündə tanınar.
D) Dostunu göstər, deyim, sən kimsən.
E) Dost dostun sağlığını istəyər.

**25.** Üzərində rəqəm verilmiş hansı sözlər məcazi mənadadır?

A) 3, 4 B) 2, 6 C) 1, 4 D) 2, 5 E) 4, 5

## İNGİLİS DİLİ

**26.** Choose the correct line of nouns which take "-es" in plural.
A) bench, tummy, tomato
B) box, progress, house
C) geography, nanny, ray
D) cliff, riddle, sloth
E) month, louse, bush

**27.** Choose the correct line of ordinal numerals.
A) twelfth, thirty-third, ninetieth
B) eleventh, ninth, eighteen
C) fourtieth, first, fifteenth
D) nineteenth, eighty-four, fiftieth
E) twenty, seventeen, a hundred

**28.** Choose the correct Tag question.
***... .... ... , doesn't he?***
A) His niece is playing the drums inside, ...
B) My friend always has tasty food in that café, ...
C) His teacher never discusses it with the students, ...
D) Does my nephew's T-shirt suit him, ...
E) My aunt grows vegetables in our garden, ...

**29.** Choose the ***incorrect*** translation.
A) Həkim, xahiş edirik, yarasanı xilas edin. – Doctor, please, rescue the bat.
B) Yeni məktəb ləvazimatlarına toxunmayın. – Don't touch new school supplies.
C) Diqqətli olun və təlimatı oxuyun. – Be helpful and read the invitation.
D) İpucunu təxmin et və testi tamamla. – Guess the clue and complete the test.
E) Ağacın arxasındakı nərdivana dırmaşma. – Don't climb the ladder behind the tree.

**30.** Choose the correct variant.
***Some children in Africa have ... . They are very poor.***
*1. no any modern schools*
*2. very a little fresh water*
*3. only a few handmade toys*
*4. a lot of health problem*
*5. no new sandals*
*6. much expensive clothes*
A) 1,5 B) 2,6 C) 3,5 D) 1,3,4 E) 2, 4,6

**31.** Choose the correct articles.
***1) ... Aliyevs were in ... United Kingdom last summer.***
***2) ... first room of the hotel was untidy, but my ... room was tidy, large and beautiful.***
*a. The, a* *b. The, -* *c. The, the*
A) 1-c; 2-b B) 1-c; 2-a C) 1-b; 2-c
D) 1-a; 2-c E) 1-a; 2-b

**32.** Choose the ***incorrect*** variant.
***Our coach usually gives us ... before the competition.***
A) some pieces of good advice
B) glasses of fresh cool water
C) three pairs of sport tights
D) a big cup of hot drink
E) a slice of pumpkin soup

**33.** Choose the correct pronouns to the underlined words.
***<u>The eyes and the tail of the big blue fish</u> look like <u>the waves of the sea</u> and <u>the Sun</u> in <u>this artist's</u> famous painting. (wave-dalğa)***
A) They, they, it, he B) Its, them, its, his
C) Their, they, it, her D) It, them, its, his
E) They, them, it, his

**34.** Choose the correct variant.
***... the sheep ... fresh grass?***
*1. Do / eat* *2. Are / fond of* *3. Is / have*
*4. -- / like* *5. Is / wanting* *6. Does / have*
A) 1,2,6 B) 1,4,5 C) 1,3,5 D) 3,4,5 E) 2,4,6

**35.** Choose the correct pronouns.
***... pair of gloves over there is from Great Britain, but ... pants are from Turkiye.***
A) This, those B) That, that C) Those, these
D) That, these E) Those, this

**36.** Which nouns are both **Uncountable** and **Compound**?
A) homework, volleyball
B) snowball, basketball
C) fireplace, overweight
D) seatbelt, knowledge
E) armchair, cupboard

**37.** Choose the correct Interrogative sentence.
A) Are you agree with the vet's instructions?
B) Where does that old man sails his boat?
C) Today is your children's field day, aren't they?
D) Whose cousins do play ping pong every Friday?
E) - Can you or your mother bake chocolate chip cookies? - I can.

**38.** Choose the correct Imperative sentence.
A) Don't excited, it is your third trip to London.
B) Aysel cut the paper with the sharp scissors.
C) Not get up early, it is Sunday today.
D) Valeh, don't talk to any foreigners.
E) Never to hunt baby animals.

**39.** Choose the correct variant.
***- ... the last problem of your Maths test easy?***
***- No, ... difficult, but we ... ready for the lesson.***
A) Were / it isn't / are
B) Was / it was / were
C) Was / it wasn't / were
D) Were / it wasn't / were
E) Was / it wasn't / weren't

**40.** Choose the correct Possessive Case of the noun.
A) Is the boys' and girls' team ready?
B) Who's the winner of that song contest?
C) This man's a good chef at the restaurant.
D) The Asadov's family photo is on the wall.
E) This scientists' eyebrows are very straight and unusual.

*Qabul imtahanı -2025*

**41.** Choose the correct variant.
***– Mother, ... you ... the table under the plane tree in our garden?***
***– Yes, I can. Let's sweep the ground first. It ... clean.***
A) may, lay / cannot
B) can, lay / may isn't
C) may, to lay / may be
D) can, lay / may not be
E) can, laying / may not be

**42.** Choose the correct time.
***It is five to eight.***
A) 18:55 B) 19:05 C) 19:55 D) 20:05 E) 20:50

**43.** Choose the correct tense forms.
A) His mother is beating the rugs before Novruz every spring.
B) The children jump a rope and play a sack race today.
C) - Where is granny? - She puts empty jars on the shelf.
D) Look at the bats. They are hanging upside down.
E) - What are you doing? - I take out the trash.

**44.** Choose the correct tense forms.
***My nieces ... the kittens this week, they ... bad for baby animals because the mother cat is ill.***
A) are feed, feel
B) is feeding, feel
C) feeds, are feeling
D) are feeding, feel
E) am feeding, are feeling

**45.** Choose the correct variants with the preposition "at".
*1. ... Ramadan*
*2. ... Ramadan holiday*
*3. ... December*
*4. ... my birthday*
*5. ... my birthday party*
*6. ... the corner of the street*
A) 3,4,5 B) 2,3,4 C) 1,5,6 D) 1,3,5 E) 1,2,6

**46.** Translate the sentence into English.
***Şahzadənin əfsanəvi tacında çoxlu brilyantlar var və bu brilyantların möhtəşəm rəngləri və formaları var.***
A) The fantastic crown has many brilliants and the colours and shapes of these brilliants are amazing.
B) There are a few brilliants in the princess's famous crown and these brilliants have amazing colours and shapes.
C) There are a lot of brilliants in the princess's fantastic crown and these brilliants have amazing colours and shapes.
D) The princess has a fantastic crown with a lot of brilliants and these brilliants have interesting colours and shapes.
E) The princess's expensive crown has a lot of brilliants and there are fantastic colours and shapes of these brilliants.

*Qəbul imtahanı -2025*

**47.** Put a question to the underlined words.
***A few <u>health lodge nurses</u> work at night.***
A) Who do work at night?
B) Who works at night?
C) How many health lodge nurses work at night?
D) Who is working at night?
E) How many do health lodge nurses work at night?

**Read the text and answer the questions 48 - 50.**

*Trees are tall plants and they can live for many years. They need water, sunshine and air to grow. Some trees drop their leaves in autumn and winter, but some trees always stay green. Trees are very useful for life on the Earth. They clean the air and give us oxygen to breathe. Trees can be home for birds, reptiles, and animals. Trees scope a large place on our planet, but we cut and use trees a lot. We use them to make paper, furniture, houses, etc. When there is a small park or forest in the centre of the city, we often run from the noisy and busy city life into that forest to have a rest. Because we feel very good when we go hiking or just walk in the forest. So, we should (gərək) take care of the forests, plant a lot of trees and help the nature.*

**48.** Choose the antonym of the word "short".
A) busy B) full C) tall
D) healthy E) large

**49.** Choose the best title for the text.
A) The noisy city centre
B) Useful tall plants
C) Hiking in the forest
D) Our unhealthy friends
E) Animals on the Earth

**50.** Choose the ***<u>incorrect</u>*** sentence from the text.
A) Some trees drop their leaves in spring and summer.
B) We cut and use a lot of trees.
C) We make tables, chairs and sofas from the trees.
D) Trees cannot grow without water, sunshine and air.
E) We can feel good when we walk in the forest.

## RİYAZİYYAT

**51.** 150 dərəcəli bucağın təpəsindən keçən daxili şüası onu birinin 90%-i digərinin $\frac{3}{5}$ –nə bərabər olan iki bucağa bölür. Alınan böyük bucaq açıq bucaqdan neçə dərəcə kiçikdir?

A) $30^0$ B) $50^0$ C) $60^0$ D) $90^0$ E) $75^0$

**52.** Düzbucaqlı şəklində zalın perimetri 210 m-dir. Zalın döşəməsinə hər tərəfdən 10,5 m məsafə qalmaqla düzbucaqlı şəklində xalça saldılar. Xalçanın perimetri neçə m-dir?

A) 168 m
B) 140,5 m
C) 189 m
D) 126 m
E) 196 m

**53.** Şəkildə verilənlərə görə FOB bucağının dərəcəsini tapın.




A) $45^0$
B) $20^0$
C) $28^0$
D) $35^0$
E) $32^0$

**54.** V, X, L, C, M rum rəqəmlərinin hər birindən bir dəfə istifadə etməklə yazıla biləcək qiymətcə ən böyük ədəd ilə ən kiçik ədədin cəmini onluq say sistemində ifadə edin.

A) 1670 B) 1985 C) 2100 D) 2105 E) 2110

**55.** Ana kiloqramı 1,2 manatdan 1,5 kq şəkər tozu və kiloqramı 2,5 manatdan bir neçə kiloqram qarabaşaq yarması aldı. O, kassaya 20 manat verdi və ona 8,2 manat qalıq qaytardılar. Ana neçə kiloqram qarabaşaq yarması aldı?

A) 3,4 kq B) 4 kq C) 4,2 kq D) 5 kq E) 6 kq

**56.** Təkliflərdən neçəsi həmişə doğrudur?

*1) Natural ədədin özü ilə tərsinin cəmi verilən ədədin özündən böyükdür.*
*2) Tili ən kiçik sadə ədədə bərabər olan kubun tam səthinin sahəsi 100-dür.*
*3) Düzgün kəsr düzgün olmayan kəsrdən böyükdür*
*4) Bucağın tərəfləri düz xətdir.*
*5) İki müxtəlif ədədin ən böyük ortaq böləni bu ədədlərin hər birindən kiçikdir.*

A) 5 B) 3 C) 1 D) 2 E) 4

**57.** 38 və 145 arasında neçə tam kvadrat var?

A) 11 B) 5 C) 8 D) 7 E) 6

Qabul imtahanı -2025

**58.** Aprel ayında 28 iş günü olan usta 15 günün hər birində **a** sayda detal, qalan iş günlərinin hər birində isə **b** sayda detal hazırladı. Usta cəmi neçə detal hazırladı?

A) (28-15a)b B) 28(a+b) C) 28b+15a
D) 15a+13b E) (15+a)(13+b)

**59.** Verilən cədvələ görə asılılığı tapın.

| | | | | |
|---|---|---|---|---|
| x | 3 | 1,5 | 4,2 | $1\frac{2}{3}$ |
| y | 7 | 2,5 | 10,6 | 3 |

A) y=2x+1 B) y=3x-2 C) y=x+1
D) y=1,5x+2 E) y=2,4x-0,2

**60.** $\frac{a}{3,3} = \frac{b}{2,7} = \frac{c}{4,11}$ şərtini ödəyən a,b,c natural ədədlərini artan sırada düzün.

A) a,b,c B) a,c,b C) b,a,c D) c,b,a E) c,a,b

**61.** Satıcı Əlinin həftəlik əmək haqqı 200 man və əlavə olaraq həftəlik məhsul satışından daxil olan məbləğin 2%-i kimi hesablanır. Əli keçən həftə 300 man əmək haqqı almışdır. Keçən həftə mağazada neçə manatlıq məhsul satılmışdır?

A) 500 manat
B) 5000 manat
C) 100000 manat
D) 15000 manat
E) 50000 manat

**62.** Təkliflərdən neçəsi həmişə doğrudur?

*1) Uzunluğu $3\frac{5}{7}$ m olan ağacı hər biri $\frac{2}{7}$ m olan 13 hissəyə bölmək olar.*

*2) Kəsrin surətini 2 dəfə artırıb, məxrəcini 3 dəfə azaltsaq, kəsrin qiyməti 1,5 dəfə azalar*

*3) a=5 olduqda $\frac{2a}{17}$ kəsri düzgün, $\frac{3a}{10}$ kəsri düzgün olmayan kəsrdir*

*4) $\frac{5}{15}$ kəsrini məxrəci 27 olan kəsrlə əvəz etmək olar.*

*5) $13\frac{3}{7}$ ədədi ədəd oxunda 12 və 13 ədədləri arasında yerləşir.*

A) 5 B) 3 C) 1 D) 2 E) 4

**63.** a ≥ 12 bərabərsizliyini ödəyən ən kiçik natural ədədlə 3,7 < x bərabərsizliyini ödəyən ən kiçik natural ədədin cəmini tapın..

A) 14 B) 15 C) 17,8 D) 16 E) 15,8

Qəbul imtahanı -2025

**64.** Üçbucağın birinci tərəfi 9,5 sm, ikinci tərəfi birinci tərəfindən $1\frac{7}{19}$ dəfə çox, üçüncü tərəfi isə ikinci tərəfindən 5 sm qısa olarsa, perimetrini tapın.
A) 37,24 sm B) 32,16 sm C) 30,5 sm
D) 28,74 sm E) 32,24 sm

**65.** Bərabərliklərin doğru olması üçün boşluqlara yazılmalı olan natural ədədlərin cəmini tapın:
1) $1\frac{3}{4}$=1,■5 2) $4\frac{7}{20}$=4,■5 3) $\frac{31}{4}$=■,75 4) $\frac{22}{5}$=4,■
A) 11 B) 15 C) 18 D) 21 E) 22

**66.** Düzbucaqlı paralelepipedin eni uzunluğunun 40%-nə, hündürlüyü isə uzunluğunun 60%-nə bərabərdir. Bütün tillərin uzunluqları cəmi 40 sm olan bu düzbucaqlı paralelepipedin həcmi neçə litrdir?
A) 0,03 litr B) 30 litr C) 0,3 litr
D) 0,003 litr E) 3 litr

**67.** $3{,}5 < b < 4{,}7$ şərtini ödəyən və onluq işarələrinin sayı 3-ü aşmayan ən böyük onluq kəsr ilə ən kiçik onluq kəsrin cəmini tapın.
A) 8,4 B) 8,309 C) 8,311 D) 8,2 E) 8,3

**68.** İfadənin qiymətini tapın:
$$(7^2 \cdot 2 + 10^2 : 2) : (43 - 5^2 - 2^3 - 6)$$
A) 42 B) 148 C) 37 D) 54 E) 74

**69.** ƏKOB(12;18)·ƏBOB(20;35)=?
A) 30 B) 10 C) 60 D) 180 E) 90

**70.** 7620=$7\cdot10^a+6\cdot10^b+c\cdot10$ yazılışına görə a+b+c ifadəsinin qiymətini tapın.
A) 15 B) 13 C) 12 D) 7 E) 136

**71.** Tənliyi həll edin: $\frac{36}{3x+6} = 2\frac{2}{5}$

A) 3 B) 5 C) 45 D) 8 E) 15

**72.** Tili 3 sm və tili 5 sm olan iki kubu şəkildəki kimi üst-üstə qoysaq, alınan fiqurun səthinin sahəsini tapın. ($dm^2$-lə)



**73.** Şəkər çuğundurundan kütləsinin $\frac{1}{7}$ hissəsi qədər şəkər tozu alınır. Fermer hər biri 1,75 t tutan 12 maşın şəkər çuğunduru tədarük edib zavoda göndərdi. Bütün məhsuldan neçə kiloqram şəkər tozu istehsal edildi?

**74.** Şəkildə AD = 8 sm, DC = 1,4 dm-dir. AFB üçbucağının sahəsi neçə $sm^2$-dir?




**75.** Uyğunluğu müəyyən edin.

**1. $x^3$ ən kiçik dördrəqəmli natural ədəddir.**

**2. $x^2$ ən kiçik mürəkkəb ədəddir.**

**3. $x^3$ ən kiçik natural ədəddir.**

*a. x ən kiçik sadə ədəddir.*

*b. x ən kiçik mürəkkəb ədəddir.*

*c. $x^2$ ən kiçik üçrəqəmli natural ədəddir.*

*d. $x^2$ nə sadə , nə mürəkkəb ədəddir.*

*e. x-in özü ilə tərsinin cəmi x-ın 1,1 mislinə bərabərdir.*

Qəbul imtahanı -2025

## TARİX

**76.** Cədvələ əsasən uyğunluğu müəyyən edin:

| Dövrlər | Şimali Azərbaycan Çar Rusiyasının hakimiyyəti illərində | |
|---|---|---|
| *19-cu əsrin birinci yarısı* | 1 | |
| *19-cu əsrin ikinci yarısı* | | 2 |

*a. Kütləvi kitabxanaların əsasının qoyulması*
*b. Qarabağ xanlığı ərazisində Kürəkçay müqaviləsinin bağlanması*
*c. İrəvan və Naxçıvan xanlıqlarının ləğv edilməsi*
*d. Şimal torpaqlarımızda amansız müstəmləkə rejiminin əsasının qoyulması*
*e. Milli teatrın yaranması*

A) 1c; 2ae B) 1bd; 2e C) 1de; 2b
D) 1ac; 2bd E) 1ac; 2e

**77.** Uyğunluğu müəyyən edin:
**Azərbaycan SSR :**
***1. XX yüzilliyin 20-30 - cu illərində***
***2. XX yüzilliyin 40-50 - ci illərində***
*a. Bakını tutaraq AXC-nin süquta uğradılması*
*b. Gəncədə milli ordu hissələrinin Şura hökumətinə qarşı üsyan qaldırması*
*c. C.Naxçıvanski adına hərbi liseyin açılması*
*d. Azərbaycanın ən böyük Su Elektrik Stansiyasının inşa edilməsi*
*e. Ermənistan SSR-dən deportasiya olunmuş Azərbaycanlıların ölkə ərazisində məskunlaşdırılması*

A) 1b, 2de B) 1a, 2de C) 1ac, 2d
D) 1ab, 2cd E) 1bc, 2e

**78.** Səfəvi dövlətinin 16-cı yüzillik və 18-ci yüzillik tarixlərinə aid oxşar cəhətdir:
A) Misir Məmlük dövləti ilə geniş əlaqələrə sahib olması
B) Rusiya işğalına qarşı mübarizə aparılması
C) Azərbaycan dilinin ölkə ərazisində ortaq ünsiyyət vasitəsinə çevrilməsi
D) Osmanlı qoşunlarının tutduğu əraziləri tərk etməyə məcbur olması
E) Qızılbaş tayfalarının dövlət idarəsindəki əhəmiyyətini itirməsi

**79.** Albaniya və Atropatena dövlətinə aid olan hansı xüsusiyyət onları Manna dövlətindən fərqləndirir?
A) haqqında ilk məlumatların qədim Aşşur hömdarlarının yazılı kitabələrində verilməsi
B) Ərəb xilafətinə qarşı Xəzər xaqanlığından yardım alması
C) Roma işğalına qarşı mübarizə aparılması
D) Makedoniya imperiyasının hücumuna məruz qalması
E) İberiya dövləti ilə həmsərhəd olması

Qəbul imtahanı -2025

**80.** Uyğunluq ***pozulmuşdur:***
A) Beynəlxalq layihələrin Azərbaycandan keçməsi – ümummilli lider Heydər Əliyevin əsas xarici siyasət istiqamətlərindən idi
B) 20-ci əsrin sonlarında Qarabağ münaqişəsi başlayan zaman Azərbaycan rəhbərliyi hər rayonda ərazi müdafiə dəstələri yaratdı
C) XXI əsrin əvvəllərində – Qarabağ və ətraf ərazilərdən erməni işğalı nəticəsində ayrılan əhalinin öz doğma yurdlarına geri dönməsi prosesi başlandı
D) Elm və mədəniyyət xadimlərinin yubileyi keçirilirdi – Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə
E) Heydər Əliyev Fondu fəaliyyətə başlamışdır – 20-ci yüzilliyin 90-cı illərində

**81.** Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin fəaliyyətlərini Səttarxan hərəkatından fərqləndirirdi:
A) xalqın maraqlarını müdafiə etmələri
B) Təbrizin xalq hərəkatının mərkəzinə çevrilməsi
C) Konstitusiya qəbul edilməsi tələbi ilə çıxış etmələri
D) şah hökumətinə qarşı mübarizə aparılması
E) Cənubi Azərbaycanda Milli hökumət qurmaları

**82.** Azərbaycan şairi Nizami Gəncəvinin türbəsinin yerləşdiyi şəhəri müasir xəritədə müəyyən edin.




A) 5 B) 3 C) 1 D) 2 E) 4

**83.** Muxtariyyət ifadəsinin mənasıdır:
A) Rusiya tərəfindən köçürülən əhalinin Qarabağ xanlığında əldə etmək istədiyi üstünlüklər
B) iri dövlətlər tərəfindən ələ keçirilən kiçik dövlətlərin ərazisində qurulan idarə sistemi
C) bir dövlətin ərazi bütövlüyünü pozmağa çalışaraq bölüşdürücülük siyasəti aparmaq
D) hər hansı bir dövlətin tərkibində ümumi qanunlara tabe olaraq daxili idarəetmədə sərbəstlik
E) çar Rusiyası dövründə Azərbaycan torpaqlarında yaradılan idarə üsulu

84. Göstərilənlər Azərbaycan üçün nəticəsidir:
- *Ölkənin müdafiə qabiliyyəti artdı*
- *Vahid çəki, ölçü, pul sistemi tətbiq edildi*
- *Mədəni həyatda intibah – çiçəklənmə başladı*

A) Səlcuqların Azərbaycanı tabe etməsinin
B) Qara Yusifin hakimiyyətə gəlməsinin
C) Ərəb Xilafətinin zəifləməsinin
D) Xürrəmilər hərəkatının yatırılmasının
E) Böyük Səlcuq dövlətinin yaranmasının

85. Quzey və Güney Azərbaycanın XX yüzilliyin I yarısı tarixinə aid oxşar cəhəti müəyyən edin:
A) Milli hökumətlərin bolşeviklər tərəfindən süquta uğradılması
B) Rusiya imperiyası tərəfindən bir sıra xanlıqların işğal edilməsi
C) Monarxiya idarə üsuluna qarşı hərəkatın baş verməsi
D) Vətən müharibəsi zamanı Azərbaycan ordusuna dəstək yürüşlərinin keçirilməsi
E) Əhalinin dininin və adət-ənənələrinin sıxışdırılması

86. Nadir şah Əfşarın fəaliyyətlərinə aid ***deyil***:
A) ölkə vilayətlərinə mərkəzi hakimiyyətə tabe məmurlar təyin edilməsi
B) Cavanşir tayfasından olan Pənahəlini cəzalandırmağa çalışması
C) ilk müstəqil Azərbaycan xanlığının yaranması
D) Osmanlı dövləti ilə münasibətləri tənzimləməyə çalışması
E) Səfəvilərdən qalma bəzi dövlət vəzifələrinin ləğv edilməsi

87. Birinci Rusiya-Qacar müharibəsi dövründə baş vermişdir:
*1.Qazax, Borçalı və Şəmşəddilin Rusiya tərəfindən işğal olunması*
*2.İrəvan xanlığının rus qoşunlarının hücum hədəflərindən olması*
*3.Şimali və Cənubi Azərbaycan ifadələrinin geniş yayılması*
*4.Azərbaycan torpaqlarının hərbi əməliyyatlar meydanına çevrilməsi*
*5.Gəncə xanı Cavad xanın işğalçılara qarşı qəhrəmanlıqla mübarizə aparması*

A) 1, 2, 5 B) 3, 4 C) 2, 3 D) 2, 4 E) 1, 3, 5

88. Səfəvi hökmdarı Şah I İsmayıl və Əmir Teymur üçün oxşar cəhət ***deyil:***
A) Orta əsrlərdə hakimiyyətdə olması
B) Bir sıra Şərq ölkələrini fəth etməsi
C) Baharlılarla mübarizə aparması
D) Türk dövlətinə rəhbərlik etməsi
E) Yeni dövlətin qurulması

89. Üzeyir Hacıbəylinin fəaliyyəti dövrlərinə aid verilmiş sxemə əsasən doğru bəndi müəyyən edin.

| ***1. Çar Rusiyası dövründə*** | ***2. AXC dövründə*** | ***3. Azərbaycan SSR dövründə*** |
|---|---|---|
| *a. "Arşın mal alan" operasının yazılması*<br><br>*b. Mətbuatda məqalələrlə çıxış etməsi*<br><br>*c. Azərbaycan Dövlət Xorunu yaratması* | *a. AXC-nin ikinci il dönümündə milli himnin hazırlanması müsabiqəsində qalib elan edilmişdi.*<br><br>*b. Tədris müəssisələrində fəaliyyət göstərmişdi*<br><br>*c. "Azərbaycan Marşı"nın müəlliflərindəndir.* | *a. Bəstəkarlar ittifaqına rəhbərlik etmişdi.*<br><br>*b. Qori Müəllimlər Seminariyasında təhsil almışdı.*<br><br>*c. Xatirəsinə Beynəlxalq Musiqi Festivalı keçirilməyə başlanmışdı.* |

A) 1ac, 2b, 3a B) 1b, 2ab, 3b C) 1bc, 2ac, 3a
D) 1a, 2bc, 3ac E) 1b, 2bc, 3a

90. Şirvanşahlar dövləti Osmanlı imperiyasından ***fərqli*** olaraq:
A) Səfəvi ordusuna məğlub olmuşdur
B) Ərəb Xilafətinin süqutu nəticəsində yaranmışdır
C) Səfəvi qüvvələri üzərində qələbə qazanmışdır
D) Səlcuq imperiyasının zəifləməsi nəticəsində müstəqilliyini bərpa etmişdir
E) Orta əsrlərdə yaranmışdır

91. Xəritədə rəqəmlərlə göstərilmiş xanlıqlara aid **olmayan** cavab bəndini müəyyən edin.




A) Əfşarlar sülaləsi tərəfindən qurulması
B) Hökmdarlarından birinin Cavad xan olması
C) İlk müstəqil Azərbaycan xanlığı olması
D) Paytaxtının liman şəhər olması
E) Bayat qalasının inşa edilməsi

*Qəbul imtahanı -2025*

**92.** Azərbaycanın qədim dövr tarixinə aid ***olmayan*** fikrin verildiyi bəndi müəyyən edin.

A) sənətkar və tacirlər arasında iqtisadi mübahisələri həll etmək üçün qurulmuşdur- məhkəmələr

B) kənd tipli yaşayış məskənləri yaranmışdı- əkinçiliyin inkişafı nəticəsində

C) şəhərlərin inkişaf edərək böyüməsi səbəb oldu- insanlar arasında xüsusi təbəqələrin yaranmasına

D) ilk şəhər dövlətləri yaranmışdı- Dəclə və Fərat çayları arasında

E) istehsal təsərrüfatının və oturaq həyata keçidin nəticələrindəndir- şəhərlərin meydana gəlməsi

**93.** Xəritədə rəqəmlərlə göstərilmiş dövlətlərə aid uyğunluğu müəyyən edin:




| | | |
|---|---|---|
| **I.** | *1 və 2* | *XV əsrin sonu – XVI əsrin başlanğıcında ittifaqa girərək Səfəvilərə qarşı mübarizə aparması* |
| **II.** | *2 və 3* | *Van gölü hövzəsində yaylaq maldarlığı ilə məşğul olan oğuz türkləri tərəfindən qurulması* |
| **III.** | *1,2,3* | *Hakimiyyət uğrunda Baharlı dövləti ilə mübarizə aparması* |
| **IV.** | *1 və 3* | *Bir sıra Şərq ölkələrinə yürüş etməsi* |

A) II, III B) I, IV C) yalnız IV D) I, III E) II, IV

**94.** Sxemə uyğun gələn doğru cavabı müəyyən edin:

| | |
|---|---|
| ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövrü*** | *Quruculuq işlərinin aparılması* |
| | *Ölkənin beynəlxalq nüfuzunun artması* |
| | – ........... |

A) Azərbaycanın qaz ixracatçı dövlətə çevrilməsi

B) Trans-Anadolu neft kəmərinin çəkilməsi

C) Azərbaycan Respublikası Milli Məclisinə ilk seçkilərin keçirilməsi

D) Bakı—Tbilisi—Ceyhan neft boru kəmərinin tikintisinə start verilməsi

E) Şuşada Qarabağ Universitetinin fəaliyyətə başlaması



**95.** Sxemə uyğun cavabı müəyyən edin.




A) Azərbaycan torpaqlarının Xilafətin hakimiyyəti altına düşməsi ilə

B) 9 - cu yüzilliyin 30-cu illərində Afşinin Babəklə apardığı danışıqların nəticəsində

C) Müxtəlif türk boylarının Azərbaycana axın etməsi ilə

D) İlk xəlifələr dövründə Kiçik Asiyanın ələ keçirilməsi nəticəsində

E) Albaniya dövlətinin Ərəblər tərəfindən süquta uğradılması ilə

**96.** Eyler-Venn diaqramına əsasən hansı fikirlərin yerini dəyişsək düzgün uyğunluq alınar?




A) 1-4 B) 2-5 C) 2-3 D) 1-3 E) 3-5

**97.** 1990-cı illərdəki Qarabağ müharibəsindən ***fərqli*** olaraq Vətən müharibəsinin gedişində:

1. *Qarabağdakı bütün erməni silahlı dəstələri tərk-silah edildi.*
2. *İranla sərhəd rayonlarımız işğalçı qüvvələrdən təmizləndi*
3. *Hərbi əməliyyatların ilk günlərində Şuşa işğaldan azad edildi.*
4. *Hərbi əməliyyatlarda "Bayraktar" PUA-larından istifadə edildi.*
5. *Xocalı və Xankəndi Azərbaycan ordusunun nəzarətinə keçdi.*

**98.** Xronoloji ardıcıllığı müəyyən edin.

1. *İlham Əliyevin ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi*
2. *Heydər Əliyevin SSRİ rəhbərliyində təmsil olunması*
3. *Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması*

**99.** Hadisənin baş verdiyi əsrə uyğun olaraq klasteri tamamlayın.

Oğuz türklərinin qurduğu dövlət tərəfindən Şirvanşahlar dövlətinin məğlubiyyətə uğradılması

Azsaylı erməni ailəsinin Üçkilsədə məskunlaşmasına icazə verilməsi.

1. *İsfahanın paytaxt şəhərə çevrilməsi*
2. *Elatlardan ibarət süvari ordu dəstələrinin təşkil edilməsi*
3. *Ərdəbil hakimlərinin Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə qoşulması*
4. *Avropa dövlətlərinin Şərqə yürüşü nəticəsində Atabəylər dövlətinin zəifləməsi*
5. *Teymurilərin Azərbaycana yürüşlərinin qarşısının alınması*

**100.** Uyğunluğu müəyyən edin.

***Azərbaycan Xalq Cümhuriyyəti***

*1. Daxili siyasəti* *2. Xarici siyasəti*

a. 1918-ci ildə Türkiyə Respublikası tərəfindən tanınması
b. Bir sıra dövlətlərlə iqtisadi müqavilələrin imzalanması
c. Qanunların icrasının Nazirlər Şurası tərəfindən həyata keçirilməsi
d. Başlıca dövlət vəzifələrinə əsasən qeyri-millətlərin nümayəndələrinin təyin edilməsi
e. Qadınlara seçki hüququnun verilməsi

# TDV Bakı Türk Liseyinin 2001-2024-cü illər üzrə qəbul uğurları




# TDV BTL 2024-cü il üzrə ümumi qəbul göstəriciləri

